**İ.C.BƏYLƏROVA**
*baş müəllim*
*e-mail: bayirada@gmail.com*
**:https://orcid.org/0009-0003-4863-2998**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.421**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI MƏNTİQİ TƏFƏKKÜRÜ İNKİŞAF ETDİRMƏK ÜÇÜN EFFEKTİV ÜSULLARIN TƏTBİQİ

***Xülasə.*** *Məqalədə ali məktəblərdə ingilis dilinin daha keyfiyyətlə və mükəmməl mənimsənilməsi üçün dilin tədrisinə müsbət təsir göstərən bəzi üsullardan bəhs edilmişdir. Bu məqsədlə məqalədə situasiya, sual və məntiqə söykənən tapşırıqların öyrənənlərin məntiqi təfəkkürünün inkişafındakı rolu araşdırılmışdır. Həmçinin qeyd edilmişdir ki, tədris prosesində debatların, diskusiyaların və oyunların məntiqlə həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bundan əlavə məqalədə qeyd olunan üsulların müəllim tərəfindən maraqlı və düzgün təşkil edilməsindən də bəhs edilir.*

***Açar sözlər:*** *debat, müzakirə, oyun, yarış, məntiqi təfəkkür, üsul*

Hazırda beynəlxalq münasibətlərin genişlənib möhkəmlənməsində və ümumilikdə ictimai həyatın bütün sahələrində xarici dillərə, xüsusilə ingilis dilinə olan tələbat dövrün vacib zərurətinə çevrilmişdir. Bu mühüm məsələnin həllinin təməli orta və ali təhsil müəssisələrində düzgün qoyularsa, dilin mənimsənilməsi daha uğurla həyata keçə bilər. Xarici dil dərslərinin təşkili işində öyrədən və öyrənənlərin müasir və faydalı üsullardan istifadə edərək qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərməsi (cütlük, qrup halında) dilin mənimsənilməsini asanlaşdırır. Lakin dərs prosesində qarşıya çıxan bəzi problemlər xarici dil müəllimlərini daima daha səmərəli və innovativ üsullara müraciət etməyə vadar edir. Təcrübə göstərir ki əksər tələbələr fikirlərini ifadə edərkən tələffüz, orfoqrafik və qrammatik səhvlərlə yanaşı rabitəsiz, məntiqsiz və həddindən artıq sadə, qısa cümlələrdən istifadə edirlər. Elə buna görə də ingilis dilinin mənimsənilməsi prosesində dilin bütün bacarıqlarının birgə inkişaf etdirilməsi üçün lazım olan səmərəli vasitələrdən istifadə etməklə bu vəzifənin uğurla həyata keçirilməsi və müəllimlərin avtoritar metodikadan fərqli olaraq, dialoji təlim metodikasına üstünlük verməsi daha böyük əhəmiyyət kəsb edir.

Təqdim olunan məqalənin məqsədi ingilis dilinin ali məktəblərdə tədrisi və öyrənilməsində qarşıya çıxan problemlərin aradan qaldırılması üçün daha maraqlı və səmərəli tapşırıqlar toplusundan istifadə etməklə bu dilin daha ifadəli və məntiqli mənimsənilməsinə kömək etməkdir.

Son illərdə təlimin yeni texnikası haqqında çox söhbətlər gedir. Yeni metodlar istifadə etmək o demək deyildir ki, köhnə metodlardan tamamilə imtina olunur. Onlardan elə səmərəli istifadə etmək lazımdır ki, fəndən asılı olmamaq, onun təlim keyfiyyətini yüksəltmək mümkün olsun. Belə təlim metodlarından biri də “Debat” təlim metodudur. Debat təliminin dərslərin yüksək keyfiyyətlə keçirilməsində rolu böyükdür. “Debat” sözünün mənası mübahisə, müşahidə mənasına uyğun gəlir. Bütün sahələrdə, o cümlədən elm sahəsində işləyən hər bir kəs hər hansı bir qərarın qəbul edilməsində və əsaslandırılmasında debat texnikasından istifadə edir [4, s. 25-27].

Müəllim tədris prosesində tələbələrin bacarıq, bilik, hazırcavablıq, güclü məntiqi təfəkkürünü üzə çıxartmaq üçün debatlara üstünlük verərsə onların eyni mövzuya müxtəlif münasibətlər nümayiş etdirməsinin şahidi olur.

Proqram üzrə keçirilən hər bir mövzuya uyğun suallar qoyulub cavablar alınırsa əslində bunların özü də debatlar yaradır ki, bu da tələbələrin müxtəlif formada öz fikrini ifadə etməsini, onların müstəqil təfəkkürünün formalaşmasına və inkişafına təkan verir.

İlk debat oyunu zamanı utancaqlıq göstərən, danışan zaman özünü müstəqil aparmağı bacarmayan tələbələr, bir neçə oyundan sonra tamamilə dəyişirlər.

Oyunun iştirakçısı olan hər bir tələbə onun qaydaları ilə tanış olub, bir neçə dəfə oyun oynadıqdan sonra, özlərində bu oyuna qarşı marağın artmasını hiss edirlər.

Müəllimlər debat oyunu keçirməklə nəinki tələbələrin məntiqi, həmçinin tənqidi təfəkkürünün də formalaşmasına şərait yaratmış olur. Belə bir şəraitdə tələbədə qarşı tərəfə hörmət etmək, bir-birinə diqqətlə qulaq asmaq hissi aşılanır ki, bu da eyni fikrə müxtəlif prizmadan yanaşmağa imkan verir.

Müəllimin tələbəyə öz fikrini sərbəst yürütməyə şərait yaratması tələbədə müəllimə hörmət və inam yaradır.

Bununla belə qeyd etmək lazımdır ki, başqa üsullar kimi tələbələrin dünyagörüşünün formalaşmasına kömək edən belə debat oyunlarının da öz prinsipləri var: Debat dünyagörüşü artırır. Düzgün seçilmiş oyunlar zamanı tələbələr həm dinləyir, həm danışır, həm oxuyur, həm də yazırlar ki, bu da həmin bacarıqların inkişaf etdirilməsi ilə nəticələnir.

Bundan başqa, oyunlar zamanı tələbələr dili monoton, yorucu metodlarla deyil, məhz maraq və həvəslə öyrənirlər. Dilin oyunlar vasitəsi ilə öyrədilməsi həm də sözlərin qrammatik və fonetik qaydalarının tələbələrin hafizəsində uzun müddət qalmağına kömək edir. İstənilən bir işin maraq və əyləncə ilə görülməsi daha səmərəli və keyfiyyətli olur. Oyunlar müxtəlif olduğu kimi tələbələr də müxtəlif keyfiyyətlərə malikdir. Ona görə də onları qruplara bölərkən, hər bir qrupda həm güclü, həm də zəif iştirakçılar olarsa, o zaman zəiflər güclülərdən yaxşı keyfiyyətləri özlərində aşılayaraq uğur əldə edə bilərlər.

Dərs prosesində müəllimlərin oyunları düzgün və planlı təşkil etməsi də böyük əhəmiyyət kəsb edir. Müəllim oyundan qabaq oyunun qaydalarını aydın izah etməli və tələbələrin – "oyunçuların" oyunu düzgün aparacağına tam əmin olmalıdır. Belə olmadıqda oyun zamanı uğursuzluq, vaxt itkisi qaçılmaz olur.

Oyun təşkil edərkən aşağıdakılar nəzərə alınmalıdır:

- Müəllim oyunun qaydalarını izah etməli və nümunə göstərməlidir.
- Tələbələr oyuna başlayır. Bu zaman onlara müdaxilə edilməməli, oyun dayandırılmamalıdır. Bu onların marağının itməsinə, stimulun azalmasına gətirib çıxara bilər.
- Müəllim, yalnız ona kömək üçün müraciət olunarsa, müdaxilə edə bilər.
- Qaydalara düzgün riayət edən tələbələr qalib olurlar.
- Sonda qaliblər mükafatlandırılır və qiymətləndirilir.

Oyunların keçirilməsi həm də tələbələrə motivasiya və stimul verir, dərsə marağı artırır. Oyunları seçərkən xüsusilə sözlə bağlı oyunlar zamanı tələbələrin, bilik səviyyəsi, söz ehtiyatı, marağı mühüm faktlar kimi nəzərə alınmalıdır.

Oyunlar, xüsusilə yeni sözlərin tələbələr tərəfindən asan yadda saxlanması baxımından da böyük əhəmiyyət kəsb edir. Oyunlar nəinki tələbə və şagirdlərin dərslərdə dili aktiv olaraq mənimsəmələrinə kömək edir, həmçinin onlarda dostluq, əməkdaşlıq, ədalətlilik və sair bu kimi gözəl hissləri də möhkəmləndirir. Oyun zamanı onlar öz rəqiblərinə qalib gəlmək üçün ağıl, məntiq və biliklərindən istifadə etməyə çalışırlar ki, bu da onların gələcək işlərində və şəxsi həyatlarında da mühüm rol oynaya bilər. Bununla yanaşı, oyunların keçirilməsi zamanı tələbə və şagirdlərin bilik və bacarıq səviyyələri müəllimlər tərəfindən, nəzərə alınmalıdır.

Dilin tədrisində oyunların keçirilməsinin bir çox üstünlükləri var: 1) Oyunlar dil dərslərinin yeknəsəkliyini aradan qaldıran sanki bir tənəffüsdür. 2) "Oyunçular" daha məsuliyyətli və motivasiyalı olurlar. 3) Dilin öyrənilməsi böyük bir səyi tələb edir ki, oyunlar tələbələrə bu səyi həyata keçirməyə kömək edir. 4) Oyunlar dilin müxtəlif bacarıqlar yolu ilə, oxu, yazı, danışıq

və dinləmə kimi təcrübəsini təmin edir. 5) Onlar tələbələrin bir-biri ilə qarşılıqlı münasibət və kommunikasiya qurmağa ruhlandırır. 6) Oyunlar dilin istifadəsi üçün münbit şərait yaradır.

Oyunlardan əsasən monotonluğu aradan qaldırmaq üçün və bəzən də dərsin sonunda boş vaxt qalarkən istifadə olunur. Li Su Kim öz müşahidəsinə əsaslanaraq qeyd edir ki, oyunlardan yalnız boşluğu doldurmaq, vaxt öldürmək üçün istifadə edilməməlidir [6].

Rikson oyunların xarici dil dərslərinin hər bir mərhələsində keçirilməsini təklif edir [7]. Bir şərtlə ki, onlar ehtiyatla, düzgün və mövzuya tam uyğun olaraq seçilsin. Oyunlar həmçinin əvvəlki dərslərin təkrarı məqsədilə əyləncəli, yorulmadan maraqla həyata keçirilməsinə də xidmət edə bilər.

Bundan əlavə müəllim tələbəyə sual vermək şəraiti yaratmalıdır ki, tələbə yalnız suallara cavab verməklə kifayətlənməyib başqa tələbələrlə də fikir mübadiləsi aparsın. Məsələn, müəyyən bir mövzunu keçdikdən sonra tələbə digər tələbələrdən soruşur: “If you were he/she how would you...?”, və yaxud “How different do you imagine the end of the story?” və s. Belə metodların işlədilməsi yalnız müəllim-tələbə arasındakı sıx əlaqələrlə (sual-cavab) deyil tələbə-tələbə arasında da möhkəm fikir mübadiləsi aparmaq üçün geniş şərait yaradır.

Didaktik sualların dərsdə “doğulması” xüsusilə, təlimin səmərəliliyinin artmasına səbəb olur. Bu isə, təlimin keyfiyyətinə təsir edən amillər sırasında şagirdlərin zehni idrak fəaliyyətinin, fərdi xüsusiyyətlərinin və iş qabiliyyətlərinin təşkili deməkdir. Hər iki amilin sintezi yarananda suallar təbii olaraq doğur: Müəllim: “Sizcə bu məsələnin həllində ən düzgün yol hansıdır?” və s.

Beləliklə, tələbələrin mövzuya girərək sual vermək (istər müəllimə, istərsə də öz tələbə yoldaşlarına) onun fikrinin dərs prosesindən yayınmadan fəal olmasına gətirib çıxarır və tələbələri nəzəriyyədən təcrübəyə aparmaq tədris materiallarının reallığını əyaniləşdirir. Nəticədə hadisələrin əyani şərhi zamanı suallar yaranır.

Oyunlarla yanaşı dilin tədrisində məntiqi təfəkkürün də rolu böyükdür. N.Xomski qeyd edir ki, həm dərketmədə, həm də öyrənmədə təfəkkür biliyin mənimsənilməsinin mahiyyətinin müəyyənləşdirilməsində fəal rol oynayır [3]. Bu fikri aydınlaşdırmaq məqsədilə aşağıdakı nümunəyə nəzər salaq: Məsələn, müəllim tələbələrə kiçik bir hekayə danışır: “One day a man came to cafe and ordered a plate of soup. The waitress brought the soup, in front of him and went away. After some minutes she noticed that the man had not eaten the soup. She asked: “Sorry sir, why do not you eat the soup? Do not you like it?” The man did not answer. Though the girl repeated the same question, but got no answer from him. She got very angry and was obliged to ask the manager to come. The manager came and asked the same question: “Why don’t you eat the soup, sir?” The man opened his mouth this time and said: “I don’t eat the soup, because I don’t have any spoon””.

Hekayə sona çatdıqda müəllim belə bir məntiqi sualla tələbələrə müraciət edir: “Why do you think the Englishman didn’t ask the girl to bring him a spoon?”. Cavablar müxtəlif olur:

I tələbə: Because the man didn’t like the girl. (Müəllim: Sorry, but it is not the right answer.)

II tələbə: Because the girl had to know that she was wrong.

III tələbə: Because the Englishman wanted the girl to be punished by the manager and in this way he gave the waitress a good lesson.

“Yes you are right, thank you!”

Sonra müəllim tələbələrdən soruşur:

“Who can translate the following sentence into English?” Əgər kişi ofisiant qızdan ona qaşıq gətirməsini xahiş etsəydi, qız onu mexaniki olaraq gətirəcək və bəlkə də gələn dəfə yenə də belə bir səhvə yol verəcəkdi və ya qaşığı gətirməyi unudacaqdı.

I tələbə: “If she brings a spoon the next time she will forget about it”.

Müəllim: “Sorry, try to think again”.

II tələbə: “If the man asked her to bring, a spoon, she would bring but, next time she would again forget about it”.

Müəllim: “Sorry, pay more attention to your grammar”.

III tələbə: “If the man had asked the girl to bring a spoon for him, she would have brought mechanically but next time she would have forgotton to bring a spoon again”.

Buradan belə bir nəticəyə gəlmək olar ki, verilmiş tapşırıqda hər hansı bir qrammatik qayda da məntiqlə əlaqəli daha möhkəm yadda qalır.

Müəllim bir tərəfdən tələbələrin məntiqi təfəkkürünü möhkəmləndirir, digər tərəfdən isə qrammatik qaydanı düzgün olaraq məntiqlə əlaqələndirir.

Bu növ məntiqi tapşırıqlar tələbələrdə yarışmaq, fərqlənmək, daha “ağıllı” olması ilə fəxr etmək kimi hisslər yaranır. Onlar daha tez və düzgün cavab tapmaqla yanaşı, məsələyə məntiqi cəhətdən, səbəblərlə aydınlıq gətirməyə öyrəşirlər.

Bundan əlavə, tapmacaların, situasiyaların, atalar sözlərinin düzgün anlaşılması, doğru cavablandırılması dərin məntiqin olması ilə əlaqələndirilir.

Məsələn, müəllim deyir: “Try to guess the riddle: What am I? When I eat I live, when I drink I die.” Əlavə edərək deyir ki, bu cansızdır və təbiətə aiddir.

I tələbə: “It is a tree,” və dərhal öz səhvini düzəldərək deyir ki, ağac su içərkən ölmür, əksinə suya ehtiyacı var.

Əlbəttə, əgər heç kim tapmacanı düzgün cavablandırmazsa o zaman müəllim izah verərək deyə bilər: “Before guessing the right answer you should think logically. In this riddle it is said ‘when I drink I die’, you should focus on it and ask what in nature is afraid of water? ‘Fire’ and that’s the right answer”.

Ümumiyyətlə, müəllimin tələbələri müntəzəm olaraq fikirləşməyə məcbur etməsi üçün onun məntiqi təfəkkürünün möhkəmlənməsi kimi mühüm bir məqsəd daşıdığı kimi, dərsin keyfiyyətinə, tələbənin zehni inkişafının artmasında da rolu əhəmiyyətlidir. Burada belə bir atalar sözünün qeyd olunması yerinə düşər: “East or West home is best” [1]. Atalar sözləri situasiya şəklində yadda daha uzun müddət qalar. Məsələn: Müəllim: “In what circumstances can we use the proverb “East or West home is best”” Bununla o tələbəni fikirləşərək onu evdən kənar bir şəraitə düşməyə sövq edir və tələbə verilmiş atalar sözünün yada düşməsinə şərait yaradan səbəbləri məntiqlə araşdırır və deyir: “When I am far from my house for a long time, I miss my native people, I am not as free as in my house for a long time. I can’t eat tasteless food any more and etc.” və tələbə nə vaxtsa bələ bir situasiyaya düşərsə yuxarıda verilmiş atalar sözünü xatırlayır.

Daha bir çalışma yolu ilə müəllim tələbələrini dinləyib fikir irəli sürmək qabiliyyətini inkişaf etdirir:

They Both Made a Mistake

The two men were staying at a hotel in the same room. One of them could not find his purse and said that his neighbour had taken it. After some time the man found the purse in his pocket and apologized and said: “Sorry, sir!” The other man said: “You thought I was a thief and I thought you were a gentleman, and we both made a mistake!”

“Well, let’s forget about it”

1. Never put off till tomorrow what you can do today.
2. Let bygones be bygones.
3. He laughs best who laughs last.

Tələbələr hekayəni oxuyub sonra verilmiş atalar sözlərinin hansının mətinə uyğun olduğunu seçirlər və mövzuya münasibətlərini də bildirirlər. Bununla yanaşı, müəllim onlardan öz həyatlarında və ya tanışları, dostları arasında buna bənzər bir hadisənin olduğunu soruşur və onların dərs prosesi ilə real həyatın əlaqəsini yaradır ki, bu da dərsin daha yaxşı mənimsənilməsini təmin edir.

Məntiqlə fikirləşmək həmçinin bəzi tələbəni canını qurtarmaq üçün işlətdiyi cümlələrdən “Bilmirəm”, “Bu mənim üçün çətindir” və yaxud ən dəhşətlisi susmağı kimi vəziyyətlərin qarşısını almaqda əvəzsizdir. Başqa sözlə, məntiqə söykənən tapşırıqların tez-tez yerinə yetirilməsi tələbələrdə bir daha dərindən fikirləşmək, daha tez və yaxşı anlamaq və daha düzgün qərara gəlmək kimi yüksək keyfiyyətləri aşılayır. Bu zaman onlar öz məntiqi təfəkkürlərini möhkəmləndirirlər ki, bu da öyrənmə prosesinə öz müsbət təsirini göstərir.

Təhsil sistemində məntiqi təfəkkür tələbələrin dərsi daha yaxşı anlayıb yadda saxlamasına bir açardır.

Bu mənada müəllimin dərs zamanı tez-tez təfəkkürü inkişaf etdirə biləcək tapşırıqlar həyata keçirməyi faydalıdır. Bu zaman tələbələr öz bilik və bacarıqlarına uyğun olaraq məsələlərə münasibət göstərir və bacarmadıqda müəllimə müraciət edir və o da öz növbəsində lazımi kömək göstərir.

Tələbələrin məntiqi təfəkkürü möhkəmləndirmək üçün aparılan təcrübə işləri zamanı verilmiş məntiqi sualların cavabını müəyyən texnika və istiqamətləndirmə yolu ilə asanlaşdırır ki, bu da tələbələrdə vərdiş və səriştə yaradır. Belə təcrübələr tələbələrə nəinki dərs prosesində, real həyatda da düzgün qərarlar qəbul edərək çətin vəziyyətlərdən asanlıqla çıxmağa kömək edir. Məsələn, müəllim tələbəni aşağıdakı situasiyadan çıxmaq üçün üç variant verərək onlardan düzgün seçim etməyi xahiş edir [5]:

“You are going along the street, and suddenly see a purse full of money on the ground”.

I variant: Would you take it and go away?

II variant: Would you pass by?

III variant: Would you take it to the police station or something else?

Tələbələr öz məntiqi təfəkkür səviyyələrinə uyğun olaraq müxtəlif cavablar verirlər.

Beləliklə, qeyd olunan bütün üsullar dil dərslərinin daha effektiv keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

***İşin elmi nəticəsi.*** Tədqiqat nəticəsində belə müəyyən edilmişdir ki, interaktiv üsullar olan debat, diskussiya və oyunların birgə tətbiqi dərsin səmərəliliyini artırır. Belə effektiv üsulların ingilis dili dərslərində istifadəsi tələbələrdə motivasiya yaradır və dərsin daha maraqlı və keyfiyyətli olmasını təmin edir. Bundan əlavə, çalışmaların qrup şəklində aparılması passiv tələbələrin də dərsə cəlb edilməsinə və tələbə yoldaşları ilə sərbəst şəkildə əməkdaşlıq etməsinə şərait yaradır.

***İşin elmi yeniliyi.*** Tədqiqatın əsas elmi yeniliyi dilöyrənənlərin ənənəvi üsullardan deyil, kollektiv şəkildə müəllim tərəfindən verilən sual və tapşırıqları, təşkil olunan debat, oyun və diskussiyaları məntiqlə yerinə yetirməsindən ibarətdir. Bu da öz növbəsində araşdırılan effektiv üsulların məntiqi təfəkkürün inkişafı ilə sıx əlaqəsini təmin edə bilər.

***İşin tətbiqi əhəmiyyəti.*** Məqalədə qeyd olunan interaktiv üsullardan dil müəllimlərinin tədris prosesində istifadə etməsi tövsiyə olunur. Həmçinin debat, oyun və s. araşdırılan üsullar dilöyrənənlərin məntiqi təfəkkürünün inkişafına xidmət edən metodik vəsait kimi tətbiq oluna bilər.

**Ədəbiyyat**

1. Abbasov, A. İngiliscə-Azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti / A.Abbasov, ─ Bakı: Turan Evi, ─ 2009.
2. Əliyeva, R. Interactive Teacher Training. Manual for English Language Teaching / R.Əliyeva, , T.Mehtiyeva, J.Silver. ─ Baku, ─ 2022, ─ s. 115.
3. Xomski, N. Dil və təfəkkür / N.Xomski, ─ Bakı: Kitab aləmi, ─ 2006, ─ s.152.
4. Scrivener, J. Learning Teaching / J.Scrivener, ─ 2005, ─ p.218.

5. Christine, F. Challenge to think / F.Christine, M.Rinvolucri, M.Berer.— UK: ELB publishing — 2008, — p.112.
6. Lee Su Kim. Creative games for the language class. Forum, — 1995, — p. 35.
7. Rixon, Sh. How to use games in Language Teaching / Sh.Rixon, — London, — 1981, —p. 65.
8. Oxford Word finder dictionary. — Oxford University Press, — 1997, — p. 515.
9. www.brainyglobe.com
10. www.goodreads.com

**I.C.Baylarova**

**Application of Effective Methods for Developing Logical Thinking in Teaching English in Higher Education Institutions**

***Summary***

In the article, some methods that have a positive impact on language teaching in order to improve the quality of English language acquisition in higher education institutions were discussed. 426ort his purpose, in the article the role of situational questions and logic-based tasks in the development of learners' logical thinking was investigated. It was mentioned that implementing debates, discussions and games logically in teaching process is of great importance. Besides, the article also discusses an interesting and correct organization of the methods used by a teacher.

***Keywords:*** *debate, discussion, game, competition, logical thinking, method*

**И.Дж.Беглярова**

**Применение эффективных методов развития логического мышления при преподавании английского языка в высших учебных заведениях**

***Резюме***

В статье рассмотрены некоторые методы, которые оказывают положительное влияние на преподавание языка с целью достижения лучшего и полного усвоения английского языка в высших учебных заведениях. В статье также рассматривается роль ситуативных вопросов и логических заданий в развитии логического мышления учащихся. Было отмечено, что логическое внедрение дебатов дискуссий и игр в процесс обучения имеет большое значение. Кроме того, в статье также обсуждается интересная и правильная организация этих используемых учителем методов.

***Ключевые слова:*** *дебат, дискуссия, игра, соревнование логическое мышление, метод*

*Rəyçi: ped.f.d., dos. əvəzi J.F.Mehrəliyeva*

*Redaksiyaya daxil olub: 15.10.2025*